# Regionların inkişafı əhalinin rifahının yaxşılaşdırılmasına xidmət edir



**_Sosial dövlət olan Azərbaycanda iş yerlərinin yaradılmasına, özünüməşğulluğun təmin olunmasına daim həssaslıqla yanaşılır. Ayrı-ayrı proqramların icrası zamanı da bu məsələ xüsusi diqqətdə saxlanılır. Ölkənin güclü iqtisadi inkişafı, maliyyə imkanlarının artması iş yerlərinin yaradılması prosesini sürətləndirir. Beləliklə, respublikada iqtisadi fəallığın davamlı şəkildə artması fonunda yeni iş yerləri açılır, bu isə təbii ki, insanların həyat səviyyəsinin yüksəlməsində özünü qabarıq büruzə verir._**

Prezident İlham Əliyevin rəhbərliyi ilə qlobal pandemiya dövründə Azərbaycanın bölgələrinin inkişafı istiqamətində atılan addımlar, reallaşdırılan layihələr xüsusilə diqqət çəkir. Ötən müddət ərzində dövlətimizin başçısının rayonlara səfərləri çərçivəsində sosial obyektlərin, yeni müəssisələrin açılış mərasimlərindəki çıxışları, imzaladığı sərəncamlar, müvafiq strukturların nümayəndələrinə verdiyi tapşırıq və tövsiyələr də mühüm önəm daşıyır. Bu qayğı və diqqət bölgələrimizə təzə nəfəs gətirməklə yanaşı, yeni imkanlar da açır, rayon mərkəzləri və kəndlərin tərəqqisi üçün növbəti vəzifələr müəyyənləşdirir.

Prezidenti İlham Əliyevin aprelin 20-də Hacıqabula səfəri də bunun bariz ifadəsidir. Xatırladaq ki, dövlətimizin başçısı həmin gün rayonda Sənaye Məhəlləsinin, Hacıqabul – Muğan avtomobil yolunun yenidənqurmadan sonra istifadəyə verilməsi, “Agro Dairy” Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) aqroparkının təqdimatı, 110/35/10 kilovoltluq “Qarasu” yarımstansiyası və “Azərsun Şamaxı Aqropark”ın açılışı ilə bağlı tədbirlərdə iştirak edib. Eyni zamanda, ölkə rəhbəri Hacıqabulun Meyniman kəndinin ərazisində fermer Elşən Xəlilovun 10 hektarlıq pambıq tarlası ilə tanış olub.

Yeri gəlmişkən, burada bir məqamı vurğulamaq istərdik. Belə ki, son 18 ildə respublikamızda kənd yollarının inşası və yenidən qurulması geniş vüsət alıb. Bütün bölgələrdə kənd yollarının tikintisi ilbəil daha da genişləndirilib. Həm sosial, həm də iqtisadi baxımdan mühüm önəm daşıyan həmin layihələrin icrası nəticəsində on minlərlə yeni iş yeri açılıb. Təzə kənd yolları yerlərdə aqrar bölmənin əsaslı şəkildə inkişafına təkan verib, təsərrüfat məhsullarının bazarlara rahat və operativ şəkildə çatdırılmasına əlverişli şərait yaradıb. Kənd yollarının inşasının genişləndirilməsi məqsədilə büdcə vəsaiti ilə yanaşı, Prezidentin Ehtiyat Fondundan da əlavə vəsait ayrılıb.

Aprelin 20-də Hacıqabul – Muğan avtomobil yolunun yenidənqurmadan sonra istifadəyə verilməsi də bunun əyani ifadəsidir. Prezident İlham Əliyevin iştirak etdiyi həmin tədbirdə dövlətimizin başçısına uzunluğu 11,5 kilometr olan yolun texniki göstəriciləri barədə bildirilib ki, magistralın yenidən qurulması nəticəsində 32 min nəfərin yaşadığı 2 yaşayış məntəqəsi arasında əlaqə güclənəcək. Eyni zamanda, əhalinin həm Bakı – Ələt – Qazax – Gürcüstan ilə dövlət sərhədi yoluna, həm də Hacıqabul – Şirvan yolu vasitəsilə digər şəhər və rayonlara rahat çıxışı reallaşacaq.

Qeyd edək ki, ölkəmizdə yollar yeniləndikcə, kənd təsərrüfatı, turizm və digər sahələrdə də inkişaf sürətlənir, bölgələrdə iqtisadi canlanma müşahidə olunur.

Hacıqabulun timsalında deyə bilərik ki, Azərbaycan Respublikası regionlarının inkişafı ölkədə uğurla həyata keçirilən davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Regionların inkişafı sahəsində qəbul edilən və yüksək səviyyədə gerçəkləşdirilən dövlət proqramlarında, habelə regionların sosial-iqtisadi inkişafına dair əlavə tədbirlərlə bağlı sərəncamlarda nəzərdə tutulan vəzifələrin icrası respublikada qeyri-neft sektorunun davamlı inkişafına, kommunal xidmətlərin, sosial infrastruktur təminatının keyfiyyətinin yüksəldilməsinə, sahibkarlıq mühitinin daha da yaxşılaşdırılmasına, investisiya qoyuluşunun artmasına, yeni müəssisələrin, iş yerlərinin açılmasına və nəticədə əhalinin məşğulluğunun artırılmasına, yoxsulluq səviyyəsinin azaldılmasına təkan verib.

Regionların 2019–2023-cü illərdə sosial-iqtisadi inkişafı Dövlət Proqramından əvvəl bu istiqamətdə qəbul edilən (2004-2008, 2009-2013 və 2014-2018-ci illər üzrə) digər proqramların icrası dövründə ümumi daxili məhsul 3,3 dəfə, o cümlədən, qeyri-neft sektoru üzrə 2,8 dəfə, sənaye üzrə 2,6 dəfə, kənd təsərrüfatı üzrə 1,7 dəfə artıb. Bu müddətdə reallaşdırılan məqsədyönlü tədbirlər nəticəsində ölkədə 1,5 milyonu daimi olmaqla, 2 milyondan çox yeni iş yeri, 100 mindən çox müəssisə açılıb, işsizlik 5 faizə, yoxsulluq səviyyəsi isə 5,1 faizə enib. Dövlət proqramları çərçivəsində görülən genişmiqyaslı işlər regionların qarşıdakı illərdə də inkişafı üçün möhkəm zəmin yaradıb.



Prezident İlham Əliyev aprelin 20-də Azərbaycan Televiziyasına müsahibəsində də regionların inkişafı barədə ətraflı danışıb. Dövlətimizin başçısı Hacıqabulun nümunəsində regionların sosial-iqtisadi inkişafı proqramının uğurla icra edildiyini, proqram çərçivəsində bu rayonda da mühüm layihələr reallaşdırıldığını bildirib: “Hacıqabulda qazlaşdırmanın səviyyəsi yüz faizə çatıbdır. Rayon tam qazlaşdırılıb. Elektrik enerjisi ilə təchizat xeyli yaxşılaşıb və bu gün artıq yeni yarımstansiyanın açılışı da bunu göstərir. Çünki tələbat artıb. İçməli su layihəsi hələ 2013-cü ildə icra edilmişdir və Hacıqabul şəhəri içməli su ilə təmin olundu. Kənd yollarının çəkilişinə gəldikdə isə, bu yolların 75 faizi yenidən çəkilib. Eyni zamanda, rayonda bir çox sosial layihələr icra edilmişdir. Xəstəxana, mədəniyyət obyektləri, 22 məktəb tikilib və əsaslı şəkildə təmir edilib. Yəni, bütün bunlar insanlar üçün gözəl şərait yaradır. İnsanların yaşayış səviyyəsi yaxşılaşıb. Biznes üçün şərait yaxşılaşıb. Bütövlükdə bu gün açılışında iştirak etdiyim obyektlər rayonun gələcək iqtisadi potensialını böyük dərəcədə gücləndirəcəkdir”.

Yeri gəlmişkən, Azərbaycanda regional proqramların uğurla icrası aqrar sektorun inkişafını sürətləndirib. Bununla bərabər, Prezident tərəfindən ənənəvi kənd təsərrüfatı sahələrinin, o cümlədən, pambıqçılığın inkişafı istiqamətində görülən tədbirlər, həmçinin istehsalçılara subsidiyaların verilməsi haqqında qəbul edilən qərarlar istehsal və ixrac potensialının artırılmasını, məşğulluq səviyyəsinin yüksəlməsini şərtləndirib.

Dövlətimizin başçısı Hacıqabul rayonunun Meyniman kəndinin ərazisində fermer Elşən Xəlilovun 10 hektarlıq pambıq tarlası ilə tanış olarkən, altı il bundan əvvəl pambıqçılıqda acınacaqlı vəziyyətin hökm sürdüyünü, cəmi 30-35 min ton məhsul toplandığını, reallaşdırılan tədbirlər nəticəsində isə keçən il 336 min ton, başqa sözlə 10 dəfə çox pambıq tədarük edildiyini bildirib.

Bəli, faktların müqayisəli təhlili onu deməyə əsas verir ki, Azərbaycan üçün ənənəvi sayılan pambıqçılıq dirçəlib. Görülən kompleks tədbirlər artıq tarixi maksimuma yenidən çatmağı şərtləndirib. Ötən il hər hektardan məhsuldarlıq 33,6 sentner təşkil edib.

Xatırladaq ki, Azərbaycanda pambıqçılığın inkişafı üçün mövcud dəstək mexanizmləri sırasına aqrotexniki dəstək, yeni, fermerlərin toxum, gübrə, pestisid, herbisid, dərmansəpən maşınlar, kultivasiya işini həyata keçirən texnikalarla təminatı, dövlət xətti ilə ölkəyə kifayət qədər ən müasir pambıqyığan kombaynların gətirilməsi, satışa yardım – tədarükçü şirkətlərin müqavilə əsasında məhsulun hər tonunu sortdan asılı olaraq 550-650 manata satın alması, subsidiyaların ayrılması daxildir. Dövlət fermerlərə pambıq sahəsinin hər hektarına görə 260 manat, təhvil verilən pambığın hər tonuna görə 100 manat subsidiya ödəyir. Subsidiyalar pambıqçıların “Fermer kartı”na köçürülür.

Hazırda kənd təsərrüfatının ən müasir texnologiyalar və elmi əsaslar üzərində inkişafı dövlətimizin başçısının aqrar siyasətinin mərkəzində duran məsələlərdən biridir. Aqroparkların yaradılması və fəaliyyəti məhz bu prinsiplərlə həyata keçirilir.

Prezident İlham Əliyevin Hacıqabula səfəri çərçivəsində təqdimatı keçirilən “Agro Dairy” Məhdud Məsuliyyətli Cəmiyyətinin (MMC aqroparkı haqqında məlumat verilərkən, bildirilib ki, adı çəkilən MMC regionlarda kənd təsərrüfatı infrastrukturunun yaxşılaşdırılması, müasir texnika və innovasiyaların tətbiqi ilə yüksək məhsuldarlığa malik keyfiyyətli məhsul əldə etmək məqsədilə layihələr həyata keçirir. Onlardan Samux rayonunun Qaraağaclı kəndi ərazisində ümumi sahəsi 2698 hektar, Tovuz rayonunun Ceyrançöl ərazisində 7 min hektar və Padarçöl (Hacıqabul, Şamaxı) ərazisində 5 min hektar olan sahələrdə intensiv bitkiçilik təsərrüfatı yaradılıb, yeni ərazilər əkin dövriyyəsinə cəlb edilib.

Qeyd edək ki, aqroparkda növbəli əkin sistemi, intensiv aqrotexnologiyalar tətbiq edilir, təkrar əkin həyata keçirilir. Nəticədə, ildə iki dəfə yüksək keyfiyyətli məhsul almaq mümkün olur.

İqtisadiyyat Nazirliyi tərəfindən “Agro Dairy” MMC-yə taxıl və yem bitkilərinin istehsalı layihəsi üzrə investisiya təşviqi sənədi verilib. Bu sənədlə MMC 23,4 milyon manat məbləğində ƏDV-dən və gömrük rüsumlarından azad edilib.

Müəssisə, həmçinin toxumçuluqla məşğul olur və bu sahədə fəaliyyətini “seleksiyaçı-toxumçu-əmtəəlik məhsul istehsalçısı” prinsipinə əsaslanaraq həyata keçirir. Toxum emalında yeniliklərə gəldikdə isə, “Plug & Play” texnologiyasının ölkəmizdə tətbiqinə başlayıb. Layihələrin uğurlu icrası ilə toxum idxalından asılılığın azalacağı gözlənilir.

***Vaqif BAYRAMOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti 2021.- 22 aprel.- S.1.